Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
“ İctimai və dövlət maraqlarının müdafiəsi”

# VII Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı - təəssüratlar, düşüncələr

## Üzeyir bəy müasir Azərbaycan musiqi mədəniyyətinin bünövrəsini yaradan, milli musiqimizi dünya arenasına çıxaran sənətkardır

**”Üzeyir Hacıbəylinin yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir”. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin bu sözləri dahi bəstəkar və musiqişünas Üzeyir Hacıbəylinin milli musiqi mədəniyyətindəki, ümumilikdə dünya musiqisindəki əhəmiyyətli yerini təyin edir.**

Üzeyir Hacıbəyli həqiqətən də müasir Azərbaycan musiqi mədəniyyətinin bünövrəsini yaradan, qədim ənənələri bu günə gətirən, milli musiqimizi dünya arenasına çıxaran, Şərq və Qərb musiqi ənənələrini öz yaradıcılığında qovuşduran sənətkardır. O, bəstəkar, musiqişünas, dramaturq, pedaqoq, ictimai xadim kimi müasir Azərbaycan musiqi mədəniyyətinin bütün sahələri üzrə inkişafına təkan vermiş və musiqimizin bugünkü yüksəlişinə zəmin yaratmışdır.

Üzeyir Hacıbəylinin musiqi mədəniyyətindəki rolunu təsbit edən ən mühüm qərar da Ulu öndərimiz Heydər Əliyevə məxsusdur. Məhz Heydər Əliyev tərəfindən 1995-ci ildə, uzun illər boyu həyatımıza daxil olmuş və hər zaman müqəddəs bir gün kimi anılan Üzeyir Hacıbəylinin doğum günü - 18 sentyabr tarixi musiqi bayramı - Üzeyir Musiqi günü elan edilmişdir. Bu musiqi bayramı ildən-ilə genişlənir, öz ənənələrini meydana gətirir, daha möhtəşəm olur.

2009-cu ildən musiqi bayramı Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı kimi qeyd olunur və musiqi mədəniyyətimiz üçün özünəməxsus simvolik məna kəsb edir. Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı və Azərbaycan Bəstəkarlar İttifaqının yaxından iştirakı ilə keçirilir. Bu, həqiqətən də Üzeyir ənənələrini yaşadan musiqimizin, Azərbaycan bəstəkarlarının bayramıdır.

Artıq ənənəvi olaraq, 10 gün, 18 - 28 sentyabr tarixlərində keçirilən festival zamanı sanki musiqi mədəniyyətimizin bütün sahələri hərəkətə gəlir. Teatr və konsert mövsümünün açılışı Üzeyir Hacıbəylinin əsərləri ilə başlanır. Festivalda azərbaycanlı musiqiçilərlə yanaşı, başqa ölkələrdən olan ifaçılar da iştirak edir. Festival zamanı konsertlər, Ü.Hacıbəylinin əsərləri əsasında teatr tamaşaları nümayiş olunur, həmçinin dahi bəstəkarın yaradıcılıq irsini araşdıran elmi konfranslar təşkil edilir. Bütün bunlar rəmzi məna daşıyaraq, Ü.Hacıbəylinin musiqi mədəniyyətimiz, musiqili teatr, bəstəkarlıq və ifaçılıq məktəblərinin, musiqi elminin və musiqi təhsilinin yaranması üçün bir başlanğıc nöqtəsi olduğunu təsdiq edir. XX əsrin əvvəllərində Ü.Hacıbəylinin yaradıcılığı milli musiqinin intibahı olmuşdur və bu gün XXI əsrin əvvəllərində sənət zirvələrini təşkil edir.

Bu il VII dəfə keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı da milli musiqimizin böyüklüyünün bir daha nümayişi oldu. Bu ilki festival yubiley tarixləri ilə bağlıdır. Belə ki, bu il Üzeyir Hacıbəylinin anadan olmasının 130 illiyi qeyd olunur. Bu il həm də onun yaxın məsləkdaşı olmuş, onunla çiyin-çiyinə müasir musiqi mədəniyyəti quruculuğunda çalışmış böyük bəstəkarımız Müslüm Maqomayevin yubiley tarixi ilə bağlıdır. Festivalın tədbirləri çərçivəsində hər iki sənətkarın yaradıcılığının əhatə olunması onun mahiyyətini artırır.

Festivalın Bakıda və Ağcabədidə - Üzeyir bəyin doğulduğu və fəaliyyət göstərdiyi məkanlarda keçirilməsi, iştirakçıların coğrafiyası, mədəniyyət sahələrinin əhatə dairəsi ilə diqqətəlayiqdir. Bütün bunlar mətbuatda geniş surətdə işıqlandırılıb və biz bu möhtəşəm tədbirin canlı izləyiciləri olaraq, hələ uzun zaman onun təsiri altında yaşayacağıq.

Bununla yanaşı, mən Üzeyir Hacıbəyli Festivalı çərçivəsində Azərbaycan Bəstəkarlar İttifaqının tədbirləri haqqında xüsusi danışmaq istərdim. Hər il olduğu kimi, bu dəfə də Azərbaycan Bəstəkarlar İttifaqının sədri, YUNESKO-nun ”Dünya artisti”, Azərbaycan Respublikasının xalq artisti, professor Firəngiz Əlizadənin rəhbərliyi altında bir neçə istiqamətdə tədbirlər keçirilmişdir. Bu da təsadüfi deyildir, çünki Üzeyir Hacıbəylinin adı Azərbaycan Bəstəkarlar İttifaqından ayrılmazdır. Vaxtilə bu təşkilatın bünövrəsini qoymuş Üzeyir bəyin bütün fəaliyyətinin əsas məğzi məhz Azərbaycan bəstəkarlıq məktəbinin təmsilçisi olan, Azərbaycan bəstəkar və musiqişünaslarının bütün nəsillərini bir araya gətirən, musiqi ənənələrini inkişaf etdirən, yaradıcılığa təkan verən, ölkənin musiqi həyatında mühüm rol oynayan bir ocağın yaradılması ilə bağlı olmuşdur. Düşünürəm ki, Azərbaycan Bəstəkarlar İttifaqının fəaliyyəti bunun bariz nümunəsidir. Firəngiz xanım həmin tədbirlərdəki nitqində bunları çox inandırıcı surətdə səciyyələndirmişdir.



Azərbaycan Bəstəkarlar İttifaqında keçirilən Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin 130 illiyinə həsr olunmuş elmi konfranslar hər zaman olduğu kimi, musiqi həyatına öz gözəl töhfələrini verir. Belə ki, musiqişünaslarımız Üzeyir bayramına yeni nailiyyətləri ilə gəlir, yeni nəşrlərin təqdimatı olur. Bu il də Üzeyir Hacıbəylinin 130 illik yubileyi münasibətilə Macarıstanda çap olunmuş bir kitabın - AMEA-nın müxbir üzvü, əməkdar incəsənət xadimi və əməkdar elm xadimi, sənətşünaslıq doktoru, professor Zemfira Səfərovanın ”Üzeyir Hacıbəyli və onun görkəmli sələfləri” kitabının macar dilində nəşri təqdim olundu. Zemfira xanımın Üzeyir Hacıbəyliyə həsr olunmuş kitabları dünya xalqlarının bir çox dillərinə tərcümə olunaraq, geniş surətdə tanınır. Z.Səfərova özünəxas tədqiqatçı təmkini ilə uzun illərdir ki, Üzeyir Hacıbəylinin yaradıcılığını tədqiq edir, onun bəstəkar və musiqişünas kimi fəaliyyətinin işıqlandırılmasında, musiqi əsərlərinin redaktə olunaraq çap edilməsində böyük əmək sərf edir. O, Üzeyir Hacıbəyliyə həsr etdiyi yaradıcılıq nailiyyətləri ilə Üzeyirşünaslığa böyük töhfələr vermişdir.

Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin yaradıcılığı, musiqi ictimai fəaliyyəti daim musiqişünasların diqqət mərkəzindədir və keçirilən konfransda da bu istiqamətdə maraqlı məruzələr dinlənilmişdir. Həmin məruzələrin müəlliflərini və mövzusunu qeyd etməyi vacib sayıram, çünki bu mövzuların hər biri özlüyündə aktual olmaqla, musiqişünaslıqda yeni tədqiqatların başlanğıcı ola bilər.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi, əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova - ”Üzeyir Hacıbəyli və Azərbaycan Bəstəkarlar İttifaqı”; AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor Rəna Məmmədova - ”Üzeyir Hacıbəyli operalarının ilk tamaşalarında Hüseynqulu Sarabskinin rolu”; sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənova - ”Üzeyir Hacıbəyli və muğam sənəti”; sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ülkər Talıbzadə - ”Üzeyir Hacıbəyli şəxsiyyəti Zemfira Səfərovanın yaradıcılığında”; bəstəkar - musiqişünas Nərgiz Şəfiyeva ”Üzeyir Hacıbəyli dünya klassik musiqisinin bəstəkar - reformatorudur” mövzusunda məruzələrində Üzeyir bəyin yaradıcılığının müxtəlif cəhətlərinə diqqət yetirmişlər.

Müslüm Maqomayevə həsr olunmuş məruzələri də qeyd etmək istərdim: Əməkdar incəsənət xadimi, professor Həcər Babayeva - ”Məslək dostları”, xalq artisti, Azərbaycan Opera və Balet Teatrının baş rejissoru Hafiz Quliyev - ”Müslüm Maqomayevin ”Şah İsmayıl” operasının quruluşu haqqında”; sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Səfərova - ”Müslüm Maqomayev. Zamanın səddini aşmış bəstəkar (arxiv materialları əsasında)”. Göründüyü kimi, hər iki konfransda məruzələrdə qoyulan məsələlər kifayət qədər geniş və çoxcəhətli idi. Bu, bir daha təsdiq edir ki, Üzeyir Hacıbəylinin və eləcə də Müslüm Maqomayevin yaradıcılığına elmi maraq tükənməzdir. Onu da qeyd edək ki, əgər Üzeyir Hacıbəyli haqqında yüzlərlə nəşrlər meydana gəlmişsə, Müslüm Maqomayevin yaradıcılığı ilə bağlı nəşrlər azdır və məncə, daha geniş tədqiqatlara ehtiyac vardır. Keçirilən elmi konfranslar bunu deməyə əsas verir və bu tədbirlərin əsas məramı və məqsədi də elmi-nəzəri fikrin inkişafındakı istiqamətləri üzə çıxarmaqdan ibarətdir.

Azərbaycan Bəstəkarlar İttifaqındakı tədbirlər sırasında keçirilən konsertin proqramı da kifayət qədər əhatəli idi. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, pianoçu Ülviyyə Hacıbəyovanın, əməkdar artistlər, müğənnilər, Gülnaz İsmayılovanın, Fərid Əliyevin, Tural Ağasıyevin iştirakı ilə keçirilən konsert Üzeyir Hacıbəylinin, onun məsləkdaşları Zülfüqar Hacıbəyovun, Müslüm Maqomayevin və davamçıları Soltan Hacıbəyovun və Niyazinin əsərlərindən ibarət idi. Qeyd edim ki, bu əsərlər, sözün əsil mənasında, repertuarda kök salmış əsərlər, bizim musiqi klassikamızdır. Onlara yarandığı dövrdən bu günə kimi nə qədər ifaçılar müraciət etmişlər və davamlı olaraq, ifa edirlər.

Mənə elə gəlir ki, Üzeyir bəyin bəlkə də əzbər bildiyimiz əsərlərini hər dəfə dinlədikdə, tədqiqat üçün müraciət etdikdə yeni cəhətlər tapırıq, onları yenidən özümüz üçün kəşf edirik. Bu konsert, ifa olunan əsərlər, ifaçılar bu hissləri təkrar yaşatdılar. Dəfələrlə dinlədiyimiz əsərləri yeni və uğurlu təfsirdə dinləmək insana həqiqətən də böyük zövq verir, qürurlandırır. Yəqin ki, biz bu qüruru, zövqü hələ uzun illər boyu Üzeyir Hacıbəyli sənəti ilə, Azərbaycan bəstəkarlarının yaradıcılığı ilə yaşayacağıq.

Sonda daha bir məşhur aforizmi xatırlatmaq istərdim. ”Biz hamımız Üzeyir məktəbindən çıxmışıq”- deyən Fikrət Əmirovun bu sözləri həqiqətən musiqimizin reallığını əks etdirir.

**Üzeyir Hacıbəylinin və eləcə də Müslüm Maqomayevin yaradıcılığına elmi maraq tükənməzdir. Onu da qeyd edək ki, əgər Üzeyir Hacıbəyli haqqında yüzlərlə nəşrlər meydana gəlmişsə, Müslüm Maqomayevin yaradıcılığı ilə bağlı nəşrlər azdır və məncə, daha geniş tədqiqatlara ehtiyac vardır. Keçirilən elmi konfranslar bunu deməyə əsas verir və bu tədbirlərin əsas məramı və məqsədi də elmi-nəzəri fikrin inkişafındakı istiqamətləri üzə çıxarmaqdan ibarətdir**

**CƏMİLƏ HƏSƏNOVA**
**Sənətşünaslıq üzrə elmlər doktoru, Professor**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***